Ədəbiyyat QƏZETİ
№20
24 6 iyun 2025-ci il

# CIĞATEL-60



Hörmətli Cığatel xanım!

Sizi - tanınmış şairi yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1965-ci il iyun ayının 14-də Ağstafa rayonunun Vurğun qəsəbəsində anadan olmusunuz. 1982-ci ildə fərqlənmə attestatı ilə orta məktəbi, 1985-ci ildə qırmızı diplomla Qazax Kənd Təsərrüfatı Texnikumunu bitirmisiniz. Gənc yaşlarınızdan şeir yazmağa başlamış, 1998-ci ildən dövri mətbuatda şeirləriniz mütəmadi olaraq dərc olunmuşdur. "Deyirlər bəxtimi görənlər olub", "Könüllərə yol gedək", "Yaxşı ki, xəyallar gözə görünmür", "Sevmək beləmi olur?", "Tanrı fürsəti", "Gözlərimdən Tanrıya bax", "Seçilmişlər" kimi kitablarınız böyük maraqla qarşılanmışdır. Şeirlərinizə onlarla mahnı bəstələnmiş, tanınmış aşıq və müğənnilərin repertuarında yer almışdır. Ölkədən kənar dövlətlərdə Azərbaycan poeziyasını təmsil etmiş, diplom və mükafatlara, o cümlədən "Türkiyə Sanat Birliği Hizmet Şeref Belgesi" ödülünə, Türk Dünyası İzmir Qurultayı və Mədəniyyət Festivalında iştirakına görə "Karpat" ödülünə layiq görülmüsünüz. Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən mədəniyyət sahəsində fəaliyyətdə fərqləndiyinizə görə "Fəxri Fərman", Ağamusa Nağıyev adına "Milli Dəyərlərin Qorunması "İctimai Birliyinin təsis etdiyi İlin ziyalısı" diplomu, Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqının "Qızıl Qələm" media diplomu ilə təltif edilmiş, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə yaradılmış Xüsusu Təqaüd Fondunun təqaüdünü almısınız.

Hazırda MTV televiziya kanalında "Sevmek beləmi olur?" verlişinin aparıcısısınız.

Hörmətli Cığatel xanım!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**